# Azərbaycan və Latviya:

## Tarixi dostluqdan perspektivli gələcəyə





**Azərbaycan-Latviya münasibətləri uzun illərə söykənən dostluq bağları ilə möhkəmlənmişdir. İki ölkə arasında diplomatik əlaqələr yalnız siyasi, iqtisadi deyil, eyni zamanda mədəni, tarixi sahələrdə də qarşılıqlı hörmət və anlaşma ilə inkişaf edir. Bu əlaqələr iki xalqın tarixi irsi və müstəqillik mücadiləsindən qaynaqlanan ortaq dəyərlərlə zənginləşərək zamanla daha da güclənmişdir.**

Bu münasibətlər dövlətlər və xalqlar arasında yaxın əməkdaşlığa əsaslanır, yalnız siyasi müstəvidə deyil, eyni zamanda mədəniyyət, təhsil və humanitar sahələrdə də intensiv şəkildə inkişaf edir. Azərbaycanın xarici siyasətində müstəqilliyin qorunması, beynəlxalq aləmdə nüfuzun artırılması və çoxşaxəli əməkdaşlıq mühüm yer tutur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Latviya ilə əlaqələrdə qarşılıqlı hörmətə və strateji tərəfdaşlığa əsaslanan əməkdaşlıq modelini uğurla tətbiq edir. Dövlət başçısının "Azərbaycan yalnız öz müttəfiqləri ilə deyil, eyni zamanda tərəfdaş ölkələrlə də bərabərhüquqlu münasibətlər qurur" fikri Latviya ilə əlaqələrin möhkəmlənməsinə güclü stimul verir.

Latviya ilə Azərbaycan arasındakı münasibətlərin möhkəmlənməsində Prezident İlham Əliyevin təşəbbüsləri, iki ölkə arasında birbaşa iqtisadi əməkdaşlığın genişləndirilməsinə verilən dəstək müstəsna əhəmiyyətə malikdir. Hər iki ölkə ticarət, nəqliyyat və enerji sahələrində yeni əməkdaşlıq yolları axtarır. Azərbaycanın enerji resurslarının Avropaya çatdırılmasında Latviya mühüm tranzit nöqtəsi ola bilər. Bu baxımdan tərəflərin əməkdaşlığı Avropanın enerji təhlükəsizliyinə də müsbət təsir göstərir.

Latviyanın müstəqilliyinin 106-cı ildönümü münasibətilə təşkil olunan tədbirlər münasibətlərin yüksək səviyyəsini bir daha nümayiş etdirdi. Bu təntənəli tədbirlərdə iştirak edən Azərbaycan nümayəndə heyəti dost ölkəyə dərin ehtiramını bildirdi. Hər iki ölkənin müstəqilliyə verdiyi önəm və dövlət quruculuğu sahəsindəki nailiyyətləri xüsusi olaraq vurğulandı. Azərbaycan nümayəndələrinin iştirak etdiyi bu tədbir həm də mədəniyyətlərarası dialoqun dərinləşdirilməsinə xidmət etdi. Latviyanın keçmiş müstəqillik mücadiləsi ilə Azərbaycanın müstəqilliyini bərpa etməsi arasındakı paralellər iki xalqın ortaq tarix və taleyini daha da yaxınlaşdırır.

Azərbaycan və Latviya arasında parlamentlərarası əməkdaşlıq əlaqələri xüsusilə diqqətəlayiqdir. Hər iki ölkə rəsmilərinin qarşılıqlı səfərləri, parlamentlərarası işçi qruplarının fəal fəaliyyəti əlaqələrin daha da dərinləşməsinə zəmin yaradır. Rəhbərlik etdiyim Azərbaycan-Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupu bu baxımdan mühüm rol oynayır. Belə ki, parlamentlərarası dialoq yalnız siyasi müstəvidə deyil, həm də xalqların yaxınlaşmasında vacibdir. Bu əməkdaşlıq bizi həm siyasi, həm də mədəniyyət sahəsində birləşdirir.

Azərbaycan və Latviya arasında əlaqələrin gələcək inkişafı üçün çox geniş perspektivlər mövcuddur. Xüsusilə nəqliyyat və logistika sahəsində əməkdaşlıq potensialı diqqət mərkəzindədir. Zəngəzur dəhlizi Latviya ilə Avropa arasında əlaqələrə yeni imkanlar təqdim edə bilər. Bu layihə yalnız iqtisadi deyil, həm də strateji baxımdan iki ölkə üçün böyük əhəmiyyət kəsb edir. Bundan əlavə, mədəniyyət sahəsində də birgə tədbirlər, xüsusilə, mədəni irsin qorunması və təbliği istiqamətində əməkdaşlıq davam etdirilir. Mədəniyyət günlərinin təşkil olunması, ortaq festivallar və sərgilər xalqlar arasında mədəni yaxınlaşmanı daha da artırır.

Azərbaycan-Latviya münasibətləri hər iki xalqın tarixdən gələn dostluq əlaqələrinin parlaq nümunəsidir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti və Latviyanın müstəqil inkişaf strategiyası bu əlaqələrin daha da güclənməsinə şərait yaradır. Həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq iki ölkəni birləşdirən ən önəmli bağlardır.

Latviya ilə Azərbaycanın tərəfdaşlığı, tarixdən gələn dəyərlərin qorunması və gələcəyə yönəlmiş ortaq məqsədlər əsasında yeni zəfərlərə aparan yol xəritəsidir. Bu əlaqələr regional sabitlik və əməkdaşlıq üçün mühüm töhfə olmaqla yanaşı, dünya səhnəsində iki ölkənin mövqeyini möhkəmləndirir.

**Kamran BAYRAMOV,**
**Azərbaycan-Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, millət vəkili.**